No: 04 2025
https://doi.org/10.64400/ea25-4-21
ISSN 2224-5529 2224-0829 2223-5124 2222-940X

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNİN ELMİ ƏSƏRLƏR JURNALI

# MÜASIR DÖVRÜN QLOBAL ÇAĞIRIŞLARI FONUNDA TÜRK DÜNYASINDA İNTEQRASİYA MƏSƏLƏLƏRİ VƏ TÜRK DÖVLƏTLƏRİ TƏŞKİLATI

**Günel ÜSTÜNDAĞ**
Bakı Slavyan Universiteti, Bakı, Azərbaycan
**Yazışılan müəllif:* gunelzeynalova1983@gmail.com

**NƏŞR TARİXİ:**
*Qəbul edilmə tarixi: 05.12.2025*
*Nəşr edilmə tarixi: 22.12.2025*

**AÇAR SÖZLƏR:**
qlobal inteqrasiya, transregionalizm, Türk Dövlətləri Təşkilatı, geosiyasət, inteqrasiya nəzəriyyələri, regionallaşma

**XÜLASƏ**
XXI əsrin geosiyasi çağırışları, qlobal aləmdə baş verən siyasi transformasiyalar fonunda millətin formalaşması və milli kimlik məsələləri həm akademik tədqiqatlarda, həm də ictimai fikirdə hələ aktuallığını itirmir. Dünyanın müxtəlif tədqiqat mərkəzlərində, elmi ədəbiyyatda bu mürəkkəb problemin həllinə müxtəlif yanaşmalar mövcuddur. Və adıçəkilən məsələ müxtəlif aspektlərdən müzakirə edilir.
Müasir türk xalqları kifayət qədər uzun tarixi inkişaf yolu keçmişdir. Tarixin müxtəlif dövrlərdə türk xalqlarının formalaşmasında siyasi, sosial-iqtisadi, mədəni və s. amillər mühüm rol oynamışlar. Bu gün siyasi arenada diqqət çəkən mühüm məsələlərdən biri də türk dövlətlərinin qloballaşma və geosiyasi qeyri-sabitlik şərtləri altında həm öz aralarında, həm ümumi qlobal məkanda inteqrasiyadır.
2009-cu ildə Naxçıvan Sazişi ilə dörd ölkə tərəfindən Türk Dövlətləri Təşkilatının (o zamankı Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası adı ilə) adlı beynəlxalq əməkdaşlıq mexanizmi yaradılmışdır. 23 maddədən və 7 səhifədən ibarət Naxçıvan Sazişi Şuranın məqsəd və vəzifələrini, strukturunu, təşkili formasını, daxili və xarici əməkdaşlıq şərtlərini müəyyənləşdirmişdir. Naxçıvan Sazişi Təşkilatın əsas və təsis sənədi kimi bu günə qədər gəlib çatmışdır. Azərbaycan Respublikası, Qazaxıstan Respublikası, Qırğızıstan Respublikası və Türkiyə Respublikasının himayəsi altında yaradılmış Türkdilli Ölkələrin Əməkdaşlıq Şurası zaman keçdikcə Özbəkistanın tamhüquqlu, Macarıstan, Türkmənistan və Şimali Kipr Türk Respublikasının, isə müşahidəçi üzv olması ilə genişlənmişdir. Bu gün o, özünün beş tam üzvü və üç müşahidəçi üzvü ilə dünya siyasi arenasında mühüm mövqe tutur, həmçinin qlobal inteqrasiya proseslərində əhəmiyyətli təsir gücünə malikdir.
Türk Dövlətləri Təşkilatı yarandığı ilk dövründə regional əhəmiyyət kəsb etsə də, sonrakı illərdə bu əməkdaşlığın əhatə dairəsi xeyli genişlənmiş və qlobal səviyyədə nüfuz və söz sahibinə çevrilmişdir.
Material və metodlar: Məqalədə Türk Dövlətləri Təşkilatının simasında türk dövlətlərinin günümüzdə dünya siyasətinə, qlobal və regional inteqrasiya, transregionalizm proseslərinə göstərdikləri təsir gücü və bəxş etdikləri taleyüklü innovativ yeniliklər elmi-analitik təhlilə cəlb edilmişdir.

## GİRİŞ

Birqütblü dünya modelinin çoxqütblü modelə çevrilməsi məsələsi müasir dünyanın qlobal tendensiyaları arasında ən vacibi, ən taleyüklüsü hesab edilir. Dövlətlərarası kommunikasiyanın dünənin nöqteyi-nəzərindən, fövqəladə coğrafi, sivilizasiya və funksional parametrlərə malik olan qeyri-adi yeni formatları meydana çıxır.

Amerika Birləşmiş Ştatlar və Sovet Sosialist Respublikaları İttifaqı arasında Soyuq müharibə dövrü beynəlxalq aləmdə ikiqütblü siyasi mühitin formalaşmasına gətirib çıxarmışdır. Soyuq müharibədən sonra yaranan siyasi və iqtisadi cəhətdən çıxılmaz vəziyyətlər Sovet İttifaqının dağılmasına gətirib çıxarmışdır.

Qlobal dəyişikliklər zamanı sıçrayışlı texnologiyaların tətbiqi və yayılması, "bilik iqtisadiyyatına" keçid, inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrin potensialının birləşdirilməsi üçün yeni imkanlar açır. Qarşılıqlı fəaliyyət metodologiyasını dəyişmədən, yeni, daha ədalətli dünya düzəninin qurulmasının əsas aləti kimi inteqrasiyaya üz tutmadan bu məqsədə nail olmaq mümkün deyil. Bu baxımdan, beynəlxalq inteqrasiya müasir dünyanın inkişafının əsas meyillərindən birinə çevrilmişdir. Eyni zamanda, ölkələrin inteqrasiya birliklərinin müxtəlif formaları həm iqtisadi, həm də güclü sivilizasiya faktorlarına arxalansa, davamlı ola bilər.

Qazaxıstanlı professor G.Hacıyevanın qeyd etdiyi kimi, 20-ci əsrin əvvəllərində Qərb dövlətləri tərəfindən ciddi surətdə həyata keçirilən siyasətin və iqtisadiyyatın beynəlmiləlləşməsi konsepsiyası qloballaşmanın yaranması üçün ilkin zəmin yaratmışdır. Lakin artan siyasi və iqtisadi əlaqələr bəşəriyyəti bir araya gətirə bilməmişdir. Onlar yalnız əvvəllər təcrid olunmuş sivilizasiyaları qarşılıqlı təsirə cəlb etmişlər (Khajieva, 2016).

Bugünkü qloballaşma və geosiyasi qeyri-sabitlik şəraitində türk dövlətlərinin həm özlərinin arasında, həm də qlobal səviyyədə inteqrasiya hərəkətləri təbii və zəruri istiqamət kimi formalaşmaqdadır. Onların əməkdaşlıq təşəbbüsləri təkcə tarixi və mədəni ortaqlıqlara deyil, həm də müasir geoiqtisadi maraqlara əsaslanır. Bu inteqrasiya prosesi hələ başlanğıc mərhələsində olsa da, davamlı inkişafa, regional tarazlığa və strateji müstəqilliyə yönəldilməsi ilə əlamətdardır. Xarici təsirlərə baxmayaraq, qarşılıqlı etimada və ümumi dəyərlərə əsaslanan yaxınlaşma perspektivli istiqamət kimi görünə bilər.

Türk Dövlətləri Təşkilatı yaranana qədər türkdilli dövlətlərin sıx əməkdaşlıq və inteqrasiya tarixində üç böyük təkamül mərhələsi baş vermişdir:

Birinci mərhələ 1992-2009-cu illəri əhatə edir. 1992-ci ildə Ankarada ilk zirvə toplantısı keçirilmiş və bu sammit zamanı "qardaşlıq ruhu" vurğulanan Ankara Bəyanatı imzalanmışdır. 1994-cü ildə İstanbulda, 1995-ci ildə Bişkek şəhərində keçirilən sonrakı sammitlər türk dövlətləri arasında əməkdaşlığı gücləndirmişdir. Lakin 2000-ci illərdə Özbəkistan iştirakını məhdudlaşdırmışdır.

2009-2021-ci illər türk dövlətlərinin inteqrasiya tarixinin ikinci mərhələsi kimi qəbul edilir. 2009-cu ildə Naxçıvanda keçirilən IX Zirvə toplantısının nəticəsi olaraq, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası yaradılmışdır. Bu qurum Birləşmiş Millətlər Təşkilatında qeydiyyatdan keçmiş beynəlxalq hökumətlərarası təşkilat kimi fəaliyyətə başlamışdır. 2011-ci ildə Almatıda Təşkilatın siyasi, iqtisadi, ticarət və s. məsələlərin müzakirəsinə həsr olunmuş ilk sammiti keçirilmişdir. Sonrakı sammitlərdə təhsil, nəqliyyat, turizm, media kimi sahələr də müzakirə edilmişdir.

2021-ci ildən bu günədək davam edən üçüncü mərhələdə ən mühüm hadisə 2021-ci ildə İstanbulda keçirilən səkkizinci zirvə toplantısında təşkilatın adının dəyişdirilərək Türk Dövlətləri Təşkilatı adlandırılmasıdır. Adıçəkilən sammitdə "Türk Dünyasına Baxış – 2040" proqramı qəbul edilmişdir. Bu proqram siyasi, iqtisadi və mədəni əməkdaşlığı dərinləşdirmək məqsədi daşıyır (Салаев, 2025).

## Qlobal inteqrasiya proseslərində türk dövlətlərinin mövqeyi. Türk Dövlətləri Təşkilatı

Sivilizasiyalar bəşəriyyət miqyasında şəxsiyyətin ən yüksək ölçüsü olmaqla, müasir dövrü də əhatə edən böyük tarixi keçid dövrlərində xüsusi rol alır. İctimai həyatın demək olar ki, bütün ən mühüm sahələrində böhran hadisələrinin kəskinləşməsi, təhlili yaranmış problemlərin səbəblərini və aradan qaldırılması yollarını tapmağa kömək edəcək əsas xüsusiyyətlərə və inkişaf mexanizmlərinə müraciət etməyi tələb edir. Ümumi qanunlara tabe olan universal sosial strukturların funksional əhəmiyyəti heterojenlərə nisbətən daha yüksək sabitlik dərəcəsini təmin etməkdir. Bununla belə, universallaşmanın əks tərəfi yeni, qeyri-ənənəvi çağırışlara cavab tapmağı çətinləşdirən milli mədəni identikliyin məhv edilməsidir. İstər bəşər sivilizasiyasının, istərsə də təbiətin təkamülü göstərir ki, müxtəliflik mütərəqqi hərəkatın əsas istiqaməti və qarantiyası olmuşdur.

Sivilizasiya sosial-mədəni ənənələrə və tarixi təcrübəyə arxalanaraq dərin inkişaf mexanizmlərini işə salmağa, transformasiya şəraitində bütövlüyün qorunub saxlanmasına kömək edir, dəyişikliklərin korlayıcı təsir göstərməsinə imkan vermir. Uzunmüddətli və əsaslı xarakterinə görə sivilizasiya birliyi türk birliyinin inteqrasiya obyekti hesab oluna bilər.

Son illərdə politoloqların və tədqiqatçıların əsas diqqət çəkdikləri fikirlərdən biri də odur ki, dünya ciddi siyasi transformasiyalar və dəyişikliklər dövrünü yaşayır. Bu dəyişikliklərin xüsusiyyətlərindən biri də qloballaşma prosesləri ilə dövlətlərin rolunun və xüsusilə onların suverenliyinin müəyyən edilməsidir. Beləliklə, müasir dünyanın qloballaşma proseslərinə məruz qalması artıq heç kəsə sirr deyil. Hətta qloballaşma prosesi müasir dövrdə intensiv şəkildə inkişaf edir. Müşahidələr göstərir ki, qlobal ictimaiyyət qloballaşma və regionallaşmanın transformasiya

amillərinin əhəmiyyətli təsirlərini yaşayır. Soyuq müharibə başa çatdıqdan sonra dünya əvvəlkindən daha çox bir-biri ilə əlaqəli və bir-birindən asılı, həssas və liminal faktorlara məruz qalmışdır.

Dövrümüzün reallığında dünya nizamının əsl problemi onun ədaləti, müxtəlif ölkələrin iqtisadi və siyasi maraqlarının, hüquqi və mənəvi-əxlaqi institutlarının koordinasiyası, eləcə də müasir dövrün qlobal problemlərinin artması nəticəsində bəşər sivilizasiyasına qarşı təhlükələrin qarşısının alınması problemidir.

Beynəlxalq münasibətlərin ikiqütblü sisteminin dağılmasından sonra qurulan, təsir mərkəzi Amerika Birləşmiş Ştatlarının olduğu hegemon dünya nizamı hazırda köklü transformasiyadan keçir. Bu, dünya siyasətində aparıcı dövlətlər hovuzunun konfiqurasiyasında dəyişiklikləri qabaqcadan müəyyən edən siyasi inkişafın təbii gedişatı ilə bağlıdır. Adıçəkilən xüsusiyyəti göstərir ki, yeni dünya nizamı keçmişdən fərqli olaraq, daha suveren dövlətlərin hərtərəfli bərabərliyi əsasında formalaşmır. Beləliklə, yaşadığımız onilliyin dominant mövqedə dayanan ziddiyyəti mövcud dövlət sistemləri ilə qloballaşma çərçivəsində iqtisadi, mədəni və siyasi inteqrasiyanın inkişaf edən tərəqqisi arasında toqquşma hesab edilir (Пинчук, 2018).

Bəzi mütəxəssislərin qənaətinə istinad etsək, "Türk inteqrasiyası"nın inkişafı göstərir ki, Mərkəzi Asiya arenasında ABŞ, Rusiya, Çin kimi əsas "oyunçular"la yanaşı, digər siyasi "oyunçular" da öz varlıqlarını günbəgün daha çox tanıdırlar. Burada İran "türk inteqrasiyaçıları" ilə yanaşı, İran da özünün "farsdilli ittifaqı" ilə də fəal işləyir, həmçinin Hindistan Əfqanıstanla strateji tərəfdaşlıq sazişi bağlayaraq mövcudluğunu bəyan edir. Odur ki, ən böyük türk dövləti olan Türkiyə də postsovet məkanında yeni müstəqil Orta Asiya respublikalarının yaranması türk inteqrasiyasının başlanması üçün əlverişli şəraitin yaranması kimi qəbul edilmişdir. Orta Asiya istiqaməti dərhal Türkiyənin xarici siyasətində prioritet istiqamətlərdən birinə çevrilmişdir. Mümkün olan maksimum konfliktsiz maraqlar kompleksinin formalaşmasının əsasını ortaq türk tarixi irsi, türk dövlətlərinin etnomədəni, dini və dil birliyi təşkil edir. Məhz inteqrasiya edən ölkələrin sivilizasiya yaxınlığı bu ittifaqın əsasını və sabitliyini təmin edir.

İnteqrasiya proseslərinin başlanğıcı 1991-ci ildə Dünya Türk Xalqları Assambleyasının yaradılması ilə əlamətdar olmuşdur. 1992-ci ildə Ankarada türkdilli dövlətlərin başçılarının birinci zirvə toplantısı keçirildi və nəticədə indiyədək yalnız humanitar və mədəni əməkdaşlıqda bir sıra razılaşmalar əldə edilmişdir. Növbəti il Turqut Özalın Orta Asiya və Azərbaycana səfərindən sonra türkdilli ölkələrin prezidentləri türkdilli ölkələrin birliyinin yaradılması haqqında Protokol imzalamışlar. 1993-cü il iyulun 12-də Alma-Atada imzalanmış müqaviləyə əsasən, TÜRKSOY yaradılmışdır. Bununla belə, inteqrasiya səylərinin ilk onilliyi praktiki nəticə verməmişdir (Khajieva, 2016).

Növbəti il Ankarada keçirilən ilk görüşlə türk zirvələri prosesi başlamışdır. Bir qayda olaraq, altı müstəqil türk dövlətinin dövlət başçısı səviyyəsində iştirak etdiyi bu cür görüşlər 2010-cu il İstanbul Zirvə Toplantısına qədər on dəfə keçirilmişdir. Siyasi məsləhətləşmələrin aparıldığı, münasibətlərin daha da inkişaf etdirilməsi prinsiplərinin müəyyən olunduğu bu zirvə toplantılarında qəbul edilən qərarlar zaman keçdikcə xeyli toplanmışdır. Məsələn, 2010-cu il İstanbul Zirvə Bəyannaməsinin məzmunu, yəni regional və beynəlxalq məsələlərlə bağlı ümumi bəyanatlar, ümumilikdə 60 maddəyə çatmışdır (Tokman, 2025).

21-ci əsrin qlobal dünyası müxtəlif prinsiplər üzərində qurulmuşdur. Və bu prinsiplərdən yeni bir iyerarxiya yaranmışdır. Beləliklə, qlobal aktorların geosiyasi statusunu başqa əsaslar müəyyənləşdirirlər. Qlobal dünya iyerarxiyasına aşağıdakı struktur elementləri daxildir: güc mərkəzləri, dünya güc mərkəzi statusuna iddialılar, iqtisadi, siyasi, hərbi və sivilizasiya qütbləri, dünya gücləri və regional güclər. Struktur elementlərin bu iyerarxiyası, daha dəqiq desək, onda müvafiq yer uğrunda mübarizə dünya siyasi proseslərinin gedişatını və gələcək inkişafın ssenarilərini müəyyənləşdirməyə qadirdir.

Qloballaşan dünyada "modernləşmənin və geosiyasi strategiyaların qütbləşməsi" tendensiyası müşahidə olunur (Ilyin, 2015). Bu gün bu tendensiyalar fonunda türk dövlətləri özünəməxsus şəkildə inkişaf edən, miqyası və miqyası getdikcə artan türk əməkdaşlığını dəstəkləmək üçün böyük addımlar atır. İnteqrasiya coğrafi baxımdan yaxın olan ölkələr arasında siyasi, iqtisadi, sosial və hərbi sahədə

əlaqələrin qurulmasıdır. İqtisadi inteqrasiya artan ticarəti, sosial inteqrasiya kütlələrin, qrupların və ya elitaların birləşməsini nəzərdə tutur. Siyasi inteqrasiya beynəlxalq səviyyədə siyasi qərarlar qəbul edərkən dövlətlər arasında davranış oxşarlığıdır.

Qeyd etdiyimiz kimi, siyasi birlik inteqrasiya hərəkatlarının ən qabaqcıl formasıdır. Siyasi birliklər federasiya və ya konfederasiya şəklində təzahür edə bilər. İştirakçı dövlətlər öz daxili işlərində müstəqildirlər və xarici əlaqələr və müdafiə məsələlərində öz səlahiyyətlərini millətlərüstü federasiya və ya konfederal ittifaqa keçirmişlər. Dünyada inteqrasiya hərəkatları nəticəsində siyasi birliyə nail olmuş yeganə hərəkat Avropa İttifaqıdır (Avcu, 2024).

Bir çox platformada tez-tez bəhs edilsə də, Türk Birliyinin nə olduğu ilə bağlı tam tərif yoxdur. İrəli sürülən təriflər çox sayda konseptual problemləri də ehtiva edir. Geniş anlamda, bütün türk mənşəli ölkələrin, muxtar idarələrin və başqa ölkələrdə yaşayan türk toplumlarının, bir sözlə, Türk Dünyasının bir dam altında toplanaraq təşkilatlanmasını nəzərdə tutan siyasi anlayışdır.

Başqa bir tərifə görə, Türk Birliyi türkdilli toplumların birliyini, onların birgə fəaliyyət göstərməsini, ortaq siyasi və iqtisadi qərarlar qəbul etməsini müəyyən edən fikri və siyasi anlayışdır. Türk Birliyi idealı qədim köklərə malik bir ideal olsa da, xüsusilə Sovetlər Birliyinin dağılmasından sonra daha qabarıq şəkildə özünü göstərməyə başlamışdır. Ötən müddət ərzində bununla bağlı ciddi addımlar atılıb, lakin Avropa Birliyinə bənzər birlik yaradılmamışdır.

Türk Birliyi elmi ədəbiyyatda rəsmi dövlətlərarası qurumların yaradılması kimi tərif edilən regionçuluq kimi özünü göstərmiş, Türk Dövlətləri Təşkilatı, Türksoy, Türkpa, Türk Akademiyası kimi dövlətlərarası təşkilatlar yaranmışdır.

Coğrafi və ya mədəni cəhətdən qonşu dövlətlər və cəmiyyətlər arasında iqtisadi, siyasi, sosial və ya mədəni qarşılıqlı əlaqənin artması proseslərinə aid olan regionallaşma istiqamətində də addımlar atılmış, lakin o, regionallaşmadan geri qalmışdır. Xüsusilə, Avropa İttifaqına bənzər inteqrasiyanı mümkün edən iqtisadi aktorlar və maraq qrupları arasında münasibətlər zəif olaraq qalır. Bu baxımdan, ən ideal namizəd enerji sektorudur və Türkiyə və Azərbaycan bu baxımdan ciddi irəliləyiş əldə etmişdir (2, s. 395).

Sosial konstruktivist nəzəriyyə ortaq şəxsiyyətə köklü beynəlxalq təşkilatların inteqrasiya prosesinin katalizatoru kimi baxır. Söhbət türk dünyasında inteqrasiya prosesinin hərəkətverici qüvvəsi kimi ortaq türk kimliyinə aiddir. Türk dünyasında birləşmə və əməkdaşlıq səylərinin kulminasiya nöqtəsi olan təşkilat müxtəlif dünya və regional güclər tərəfindən böyük maraqla qarşılanan geosiyasi, iqtisadi, enerji, müdafiə və mədəniyyət sahələrində xüsusi aktivlərə malikdir (Demir, 2022).

Son otuz il ərzində türk dövlətləri arasında ortaq mədəni əlaqələrə əsaslanan sıx əməkdaşlıq əlaqələri müxtəlif əməkdaşlıq platformaları yaratmışdır. Bu platformalar içərisində ən köklü olanı Türk Dövlətləri Təşkilatıdır. Hazırda Türk Dövlətləri Təşkilatının beynəlxalq münasibətlərdə sosial konstruktivizm nəzəriyyəsinin önə çıxardığı ortaq kimliyə əsaslanan beynəlxalq təşkilat kimi 2040-cı illər üçün möhkəm baxışı vardır.

Geosiyasi və geostrateji yerləşmə mövqeyi TDT ölkələrini beynəlxalq arenada fərqləndirən mühüm imtiyazlardan biridir. Ş.Çevikelin fikrincə, (Çevikel, 2022). Onların Şərq-Qərb nəqliyyat dəhlizində yerləşməsi türk dövlətlərini Çin və Avropa arasında əlaqəni təmin etmək üçün açar rolunu oynayır. Bu kontekstdə tarixi İpək Yolunun canlandırılmasını nəzərdə tutan Transxəzər Beynəlxalq Nəqliyyat Dəhlizinə (Orta Dəhliz) xüsusi diqqət yetirilməlidir. Mərkəzi Dəhliz Türkiyə-Qafqaz-Xəzər dənizi və Mərkəzi Asiya marşrutunu izləyən Çin və Avropa İttifaqını birləşdirən dəmir yolu yük dəhlizidir. Dəhliz türk dövlətləri üçün siyasi və iqtisadi qazanclar verməklə yanaşı, regional və qlobal inteqrasiya üçün də imkanlar təqdim edir.

Əslində, 2015-ci ilin noyabrında Antalyada keçirilən G-20 Liderlər Zirvə toplantısında Türkiyə ilə Çin arasında "Bir Kəmər və Yol" Təşəbbüsünün və Orta Dəhliz Təşəbbüsünün Uyğunlaşdırılmasına dair Anlaşma Memorandumu imzalanmışdır. Rusiya-Ukrayna müharibəsi Şimal dəhlizini həssas, İrana qarşı embarqolar və Yaxın Şərqdəki münaqişələr Cənub Dəhlizini təhlükəsizlik riskinə çevirdiyi zaman Orta Dəhliz ön plana çıxmışdır.

Siyasi əməkdaşlığa dair fəaliyyətləri TDT-yə üzv dövlətlər üçün ümumi maraq kəsb edən qlobal və regional əməkdaşlığın gücləndirilməsi, habelə milli institutlar və digər maraqlı tərəflər arasında sinerjinin gücləndirilməsinə xüsusi diqqət yetirilir. Buraya həmçinin, Təşkilata üzv dövlətlərdə qanunun aliliyinin, məhkəmə sistemlərinin, hüquqi infrastrukturun və institusional potensialın gücləndirilməsi üzrə əməkdaşlıq da daxildir. Bu kontekstdə məqsəd mədəniyyət, akademik və parlament sahələrində qarşılıqlı əlaqəni inkişaf etdirmək üçün türk əməkdaşlığının digər institutları arasında səmərəli əməkdaşlığın və koordinasiyanın təmin edilməsidir. Bundan əlavə, digər regional və qlobal təşkilatlarla əməkdaşlığın genişləndirilməsi və real müştərək layihələrin həyata keçirilməsi qeyd olunmuşdur (Yaldiz, 2023). Bu əməkdaşlıq sahələrinin "siyasi və təhlükəsizlik sahəsində əməkdaşlıq" kimi təyin olunması onu göstərir ki, siyasi əməkdaşlıq insan hüquq və azadlıqlarına deyil, təhlükəsizlik üzərində qurulmuşdur. Bəzi tədqiqatçıların fikrincə, siyasi əməkdaşlığın paylaşılması və demokratiya, qanunun aliliyi, fundamental hüquq və azadlıqlar əsasında siyasi əməkdaşlığın qurulması türk dünyasının qarşıdakı illərdə və ondan sonrakı dövrdə regional və qlobal səviyyədə əsas söz sahibinə çevirəcəkdir.

Türk Dövlətləri Təşkilatı uzunmüddətli perspektivdə Avrasiya regionunda maraqları olan böyük dövlətlər arasında danılmaz gücə çevriləcək və regionda güc balansında aparıcı aktorlardan biri olacaq. Beləliklə, yuxarıda qeyd etdiyimiz kimi, Türk Dövlətləri Təşkilatının çətiri altında əməkdaşlıq müxtəlif səviyyələrdə və bir çox sahələrdə gedən konstruktiv və əhatəli əməkdaşlığı özündə ehtiva edir. Ona görə də gələcəkdə türk dövlətlərini ortaq addımlar atmadan, birgə hərəkət etmədən təsəvvür etmək çətindir.

Türk Dövlətləri Təşkilatı uğurlu əməkdaşlıq platforması, Türk dünyasının səsi kimi tanınmışdır. Bundan əlavə, Türk Dövlətləri Təşkilatının regionda və qlobal miqyasda təsiri durmadan artır.

**Türk Dünyasına baxış – 2040**

"Türk dünyasına baxış – 2040"ın qəbul edilməsi, ölkələrin daha açıq, sistemli və məqsədyönlü əlaqələr vasitəsilə birlikdə daha yaxşı gələcək qurmağa qərar verdikləri tarixi məqamlardan biridir. Əldə edilmiş nailiyyətlərə, TDT ölkələrinin ehtiyacları haqqında dərin biliklərə və milli orqanlarla geniş məsləhətləşmələrə əsaslanaraq, "Türk dünyasına baxış – 2040" bu tarixə qədər aydın gələcək hədəflərlə əməkdaşlığın strateji istiqamətini formalaşdıracaqdır. Əslində, "Türk dünyasına baxış – 2040" Müstəqil Dövlətlər Birliyinə üzv olan ölkələrin arasında hökm sürən əlaqələri əməkdaşlıqdan tədricən inteqrasiyaya doğru istiqamətləndirir.

"Türk dünyasına baxış – 2040" aşağıda sadalananlara nail olmaq üçün çağırışdır:

a) müxtəlif beynəlxalq məsələlərdə ümumi mövqe nümayiş etdirmək üçün siyasi birliyin inkişaf etdirilməsi;

b) spesifik sektor siyasətinin və müvafiq qaydaların uyğunlaşdırılmasının dəstəklənməsi;

c) ticarətdə tam inteqrasiyanın təmin edilməsi;

c) Ümumi və vahid sərmayə sahəsinin yaradılması;

d) rəqəmsal texnologiyaların daha yaxşı istifadəsi və rəqəmsal inteqrasiyanın reallaşdırılması;

e) nəqliyyat və enerji sahələrində əlaqənin təkmilləşdirilməsi;

f) İnsanların daha çox hərəkətliliyinə imkan yaratmaqla sosial və mədəni qarşılıqlı əlaqələrin artırılması (Amreyev, 2025).

Türk dünyasına məxsus coğrafi arealda innovasiya ekosisteminin inkişaf etdirilməsi, yaşıl transformasiyalar, insan kapitalının təkmilləşdirilməsi və qlobal dəyər zəncirlərinə daha mükəmməl inteqrasiya kimi məsələlər də "Türk dünyasına baxış – 2040"ın prioritetləri arasındadır.

## NƏTİCƏ

Nəticədə deyə bilərik ki, son illər Türk Dövlətləri Təşkilatının coğrafi məkanı genişlənmiş, strateji əhəmiyyətli regionları əhatə etmiş, Avrasiyada sabit inteqrasiyanın qurulması üçün nəhəng potensiala və hər cür şəraitə malik olan regional qarşılıqlı fəaliyyətin keyfiyyətcə yeni modeli yaradılmışdır. Bu gün türk dövlətlərinin inteqrasiyası institusionallaşdırılıb və aydın inkişaf strategiyasına malikdir, burada prioritet olan məsələ qarşılıqlı siyasi və iqtisadi fəaliyyətdir. Reallıqda

TDT-nin gələcək dayanıqlı inkişafında risk də var, lakin TDT üzvləri bir istiqamətdə düşünsələr və Təşkilatın perspektivləri ilə bağlı adekvat qərarlar qəbul etsələr, bütün maneələri dəf etmək olar. Və bu qənaətə sübut kimi demək olar ki, TDT Avrasiyada inteqrasiya proseslərinin aparıcı qüvvələrindən birinə çevrilir.

"Türk dünyasına baxış – 2040"ın qəbul edilməsi ilə türk əməkdaşlığı yeni bir dövrə qədəm qoymuşdur. Texniki baxımdan əməkdaşlıq daha məqsədyönlü olacaq və birgə fəaliyyət üçün ən böyük potensiala malik sahələrə yönəldiləcək. Bu sənəd strateji baxımdan türk dövlətlərinin mərhələli inteqrasiyasının əsasını qoymuşdur. Bu, şübhəsiz ki, uzun və çətin proses olacaq. Amma yaxşı tərəfi odur ki, Türk Dünyasında əməkdaşlıq addım-addım inkişaf edir və bu, 2022-ci il noyabrın 11-də Səmərqənddə keçirilmiş Dövlət Başçıları Zirvə toplantısında öz əksini tapmışdır.

## ƏDƏBİYYAT SİYAHISI


1. Amreyev, B. (2021, 30 mart). Türk Konseyi, Türk dünyası birleşik devletleri oluşturmayı amaçlıyor. Anadolu Ajansı. https://www.aa.com.tr/tr/turkiye/amreyev-turk-konseyi-turk-dunyasi-birlesik-devletleri-olusturmayi-amacliyor/2192840
2. Avcu, S. (2024, ekim). Bölgesellik ve bölgeselleşme kavramları ışığında Türk Birliği. TÜDAS – 2024: XI Uluslararası Türk Dünyası Araştırmaları Sempozyumu Bildirileri, Bakü, Azerbaycan. s. 389-396
3. Çevikel, Sh. (2022). Geography as destiny? The relationship between geography and foreign policy: in the case of Azerbaijan // Cappadocia Journal of Area Studies. № 4 (1), 40-63. DOI: https://doi.org/10.38154/cjas.26
4. Demir, C. (2022). The Organization of Turkic States: Implications for the Regional Balance of Power. Türkiye: Security Strategies Journal, OTS Special Issue, p. 39-71. DOI: https://doi.org/10.17752/guvenlikstrtj.1104776.
5. Ilyin, İ., Grinin, L., Herrmann P. & Korotaev, A. (2015). Globalization Political Processes in Their Dynamics and Development. Globalistics and globalization studies. 127-137.
6. Khajieva, G. (2016). Turkic Integration: Problems and Prospects. Kazakhstan: Journal of Institute of Economic Development and Social Researches, 2 (4), 27-32. DOI: 10.31623/iksad.12
7. Tokman, M. (2025, 29 ağustos). Integration of The Turkic World. Türkiye. Türk Asya Stratejik Araştırmalar Merkezi'nin bülteni. https://ipv4.tasam.org/Files/Icerik/File/Mert%20TOKMAN-%20Eng.pdf_34ddad4d-77af-4392-996a-4d36d6ee715c.pdf
8. Yaldiz, F. (2023). The Political Vision of The Organization of Turkic States: An Analysis of The Turkic World Vision 2040. Eurasian Research Journal (ERJ), 2 (5), 61-79. DOI: https://doi.org/10.17072/2218-1067-2023-1-78-87
9. Yuyan, Zh. (2023). Organization of Turkic States: Origin, Motives, Particularities and Influence. Bulletin of Perm University. 1 (17), 78-87. DOI: https://doi.org/10.17072/2218-1067-2023-1-78-87
10. Пинчук, А.Ю. (2018). Глобализация как фактор трансформации мировой политической системы. Записки исследователя государственного и муниципального управления, 1, 138-143.
11. Салаев, Д.Дж. (2025). Вопрос интеграции тюркских государств и роль культурной сферы в этом процессе. Вестник науки и творчества, 5 (105), 33-37.

## SUMMARY

## PROBLEMS OF INTEGRATION IN THE TURKIC WORLD AGAINST THE BACKGROUND OF GLOBAL CHALLENGES OF THE MODERN ERA AND THE ORGANIZATION OF TURKIC STATES

**Gunel Ustundagh**

Against the backdrop of the geopolitical challenges of the 21st century and political transformations taking place in the global world, issues of nation formation and national identity have not lost their relevance both in academic research and in public opinion. In different research centers around the world, in the scientific literature, there are different approaches to solving this complex problem and this issue is being discussed from different sides.

Modern Turkic peoples have gone through a fairly long historical path of development. In the formation of the Turkic peoples in different periods of history, political, socio-economic, cultural, etc. factors played an important role. One of the most important issues in the political arena today is the integration of Turkic states both among themselves and into the common world space in the context of globalization and geopolitical instability.

In 2009, by signing the Nakhchivan Agreement, the four countries created an international cooperation mechanism called the Organization of Turkic States (then known as the Cooperation Council of Turkic Speaking States). The Nakhchivan Agreement, consisting of 23 articles and 7 pages, defined the goals and objectives of the Council, its structure, organizational form, and conditions for internal and external cooperation. The Nakhchivan Agreement has survived to this day as the main and founding document of the Organization.

The Cooperation Council of Turkic Speaking States, established under the auspices of the Republic of Azerbaijan, the Republic of Kazakhstan, the Kyrgyz Republic and the Republic of Turkey, has expanded over time: Uzbekistan has become a full member, and Hungary, Turkmenistan and the Turkish Republic of Northern Cyprus have become observer members. Today, with five full members and three observer members, it occupies an important position in the global political arena and also exerts a significant influence on global integration processes.

Although the Organization of Turkic Speaking States had a regional significance in the first period of its existence, in subsequent years the scope of this cooperation has expanded significantly and it has become the owner of influence and voice at the global level.

**Material and methods:** the article examines the influence of the Turkic states, represented by the Organization of Turkic States, on world politics, global and regional integration, the processes of transregionalism today, as well as the fateful innovative innovations that they have brought.
**Keywords:** *global integration, transregionalism, Organization of Turkic States, geopolitics, integration theories, regionalization*

## РЕЗЮМЕ

## ПРОБЛЕМЫ ИНТЕГРАЦИИ В ТЮРКСКОМ МИРЕ НА ФОНЕ ГЛОБАЛЬНЫХ ВЫЗОВОВ СОВРЕМЕННОЙ ЭПОХИ И ОРГАНИЗАЦИЯ ТЮРКСКИХ ГОСУДАРСТВ

**Гюнель Устундаг**

На фоне геополитических вызовов XXI века и политических трансформаций, происходящих в глобальном мире, вопросы формирования нации и национальной идентичности не утратили своей актуальности как в академических исследованиях, так и в общественном мнении. В разных исследовательских центрах мира, в научной литературе существуют разные подходы к решению этой сложной проблемы и данный вопрос обсуждается с разных сторон.

Современные тюркские народы прошли достаточно длительный исторический путь развития. В формировании тюркских народов в различные периоды истории важную роль играли политические, социально-экономические, культурные и т. д. факторы. Одним из важнейших вопросов на политической арене сегодня является интеграция тюркских государств как между собой, так и в общее мировое пространство в условиях глобализации и геополитической нестабильности.

В 2009 году, подписав Нахчыванское соглашение, четыре страны создали международный механизм сотрудничества под названием Организация тюркских государств (тогда известный как Совет сотрудничества тюркоязычных государств). Нахчыванское соглашение, состоящее из 23 статей и 7 страниц, определило цели и задачи Совета, структуру, организационную форму, условия внутреннего и внешнего сотрудничества. Нахчыванское соглашение сохранилось до наших дней как основной и учредительный документ Организации.

Совет сотрудничества тюркоязычных государств, созданный под эгидой Азербайджанской Республики, Республики Казахстан, Республики Кыргызстан и Турецкой Республики, со временем расширился: Узбекистан стал полноправным членом, а Венгрия, Туркменистан и Турецкая Республика Северного Кипра – членами-наблюдателями. Сегодня, имея пять полноправных членов и три члена-наблюдателя, она занимает важное положение на мировой политической арене, а также оказывает существенное влияние на мировые интеграционные процессы.

Хотя в первый период своего существования Организация тюркоязычных государств имела региональное значение, в последующие годы масштабы этого сотрудничества значительно расширились, и она стала обладательницей влияния и голоса на мировом уровне.

**Материалы и методы:** в статье рассматривается влияние тюркских государств, представленных Организацией тюркских государств, на мировую политику, глобальную и региональную интеграцию, процессы трансрегионализма сегодня, а также судьбоносные инновационные нововведения, которые они привнесли.

**Ключевые слова:** *глобальная интеграция, трансрегионализм, Организация тюркских государств, геополитика, теории интеграции, регионализация*